**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NÜSRƏT HACIYEVİN QRAFİKA YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

**İddiaçı: Günel Ramiz qızı Qacarova**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Xalq rəssamı, professor
**Salxab İsa oğlu Məmmədov**

Rəsmi opponentlər: Əməkdar rəssam, professor
**Rəsul İsmayıl oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aslan Əkbər oğlu Xəlilov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ramil Afiq oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

____________________

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

____________________

Elmi seminarın sədri vəzifəsini müvəqqəti icra edən: Xalq rəssamı, professor
**Natiq Kamal oğlu Əliyev**

____________________

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr Azərbaycan təsviri sənətində milli ənənələrin bədii ifadəçisi olan rəng duyumu, dekorativ ahəngdarlıq, formanın plastik ifadəliliyi, harmoniyası xalqın estetik zövqünü, dünyagörüşünü əks edirdi. Təsviri sənətdə ritmik quruluşlu, parlaq, dekorativ rəng ahəngi, xətlərin simmetrik yerləşimi əsasında qurulan folklor elementləri yeni biçimdə təqdim olunmağa başlanır.

Azərbaycan təsviri sənətində milli dəyərləri müasir baxışda təqdim edən rəssamlar dövrün estetik meyarları çərçivəsində yeni təsvir cığırları açdılar. Bu zənginliyi öz yaradıcılığında göstərməyə çalışan qrafik rəssam Nüsrət Hacıyevi xüsusi vurğulamaq lazımdır. 1970-ci illərdən başlayaraq peşəkar ali təhsil almış istedadlı rəssam Nüsrət Hacıyev Azərbaycan təsviri sənətinə öz əsərləri ilə böyük töhfələr verməkdədir.

Nüsrət Hacıyevin yaratdığı əsərlərinin düşündürücü, lirik və romantik ruhu özündə əks etdirməsi, milli ənənələrə, əsasən də miniatür təsvir ənənələrinə maraq göstərməsi onun yaradıcılığını xarakterizə edən əsas xüsusiyyətlərdəndir. Onunla eyni dövrdə yaradıcılığa başlayan Arif Hüseynov, Arif Ələsgərov, Adil Rüstəmov, Əlisəttar Səlimov, Rafiq Hüseynov və digər rəssamların da mövzu və sənət təcrübəsi axtarışına çıxmaları poetik ovqatlı əsərlərin yaradılması üçün xarakterik olmuşdur.

Bütün yaradıcılığını təsviri sənətin inkişafına həsr etmiş Nüsrət Hacıyev rəssamlığın bir çox janrlarında fərqli mövzulara, kompozisiya həllinə malik çoxsaylı əsərlər yaratmışdır. Onun xüsusilə kitab qrafikası sahəsində xidmətləri təqdirəlayiqdir. Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərinə, uşaq ədəbiyyatına çəkdiyi illüstrasiyalar ölkəmizdə kitab mədəniyyətinin fərqli tərzdə inkişafına öz töhfəsini vermişdir. Nüsrət Hacıyev istedadlı sənətkar, gözəl tərtibatçıdır. Əsasən kitab tərtibatı üzərində çalışan görkəmli rəssam eyni zamanda bir çox qrafik əsərlərin, mozaik pannoların da müəllifidir.

Nüsrət Hacıyevin əsərləri çağdaş dövrümüzdə ənənə və müasirliyin qovuşduğu, əsl azərbaycanlı ruhu duyulan dərin

məzmunlu sənət nümunələridir. Onun orta əsrlər Azərbaycan miniatür ənənələrinin əsaslarından bəhrələnməsi buna əyani sübutdur. Əsərlərində təqdim etdiyi ədəbi əsri duymaq, onun dərin məzmun mahiyyətinə varmaq, hadisələrin və xarakterlərin açılmasında böyük sənətkarlıq nümayiş etdirməsini təsdiqləyən faktlardandır.

XX əsrin əvvəllərindən Azərbaycan qrafikası yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan sənətşünaslığında qrafika sahəsində müxtəlif yeni texnikalardan istifadənin tətbiqi 1950-ci illərdən tədqiq edilməyə başlanmışdı. Xüsusilə M.Nəcəfovun[1], A.Qazıyevin[2], M.Tərlanovun[3] və digərlərinin tədqiqatlarında, dövrü mətbuatda nəşr olunmuş məqalələrində, eləcə də A.M. Ələsgərovun "Estampın tarixi və ofort yaradıcılığının texniki üsulları" (2002)[4], C.M. Müfidzadənin "Ofort" (2007)[5] adlı kitablarında dəzgah qrafikasının bədii-texniki xüsusiyyətləri, yaradıcı məqamları nəzərdən keçirilmişdi.

Dəzgah qrafikası sahəsində ilk fundamental tədqiqatı Paşa Hacıyevin 1962-ci ildə nəşr etdiyi «Азербайджанская советская графика» monoqrafiyasını[6] hesab etmək olar. Müəllifin 1974-cü ildə yazdığı "Rəssam, həyat, gözəllik" adlı kitabında[7] sovet dövrü

---

[1] Nəcəfov, M. Yaradıcılıq yolları ilə // Ədəbiyyat və incəsənət – 1968, 1 iyun; Azərbaycan SSR-nin incəsənəti – [Leninqrad]: 1972; Наджафов, М. Искусство Азербайджанской ССР / М.Наджафов – Ленинград – 1972; Искусство Советского Азербайджана / М.Наджафов, Н.Габибов – Москва: Советский художник – 1960; Изобразительное искусство Азербайджанской ССР./ М.Наджафов – Ленинград – 1972; М. Живопись Азербайджанской ССР. 60-е годы (альбом) / М.Наджафов – Москва: Советский художник –1976.

[2] Казиев, А.Ю. Искусство в послевоенный период (1946-50) // Искусство Азербайджана – Баку – 1954, вып. 4 – с.308.

[3] Tərlanov, M. Azərbaycan sovet qrafikası. / M.Tərlanov, R.Əfəndiyev – Bakı – 1963. – 24 s.

[4] Ələsgərov, A.M. Estampın tarixi və ofort yaradıcılığının texniki üsulları. / A.M. Ələsgərov – Bakı. – 2002.

[5] Müfidzadə, C.M. Ofort. / C.M. Müfidzadə – Bakı. – 2007.

[6] Гаджиев, П. Азербайджанская Советская графика / Р.Гаджиев – Баку: изд-во АН Азербайджанской ССР – 1962.

[7] Hacıyev, P.Ə. Rəssam, həyat, gözəllik. / P.Ə. Hacıyev – Bakı: Gənclik – 1974. – 158 s.

Azərbaycan qrafika sənətinin inkişaf yolları izlənilir. 1977-ci ildə nəşr olunmuş "Azərbaycan incəsənəti" adlı topluda[8] 1970-ci illərin ortalarınadək qrafika sənətinin inkişaf məsələləri tədqiq olunmuşdur.

XX yüzilliyin 80-90-cı illərində işıq üzü görmüş ayrı-ayrı qrafik rəssamların yaradıcılıqlarını işıqlandıran kataloqlarda, metodik vəsaitlərdə, monoqrafiyalarda qrafika sənətinin bu və ya digər aspektləri vurğulanır.

Rəşad Mehdiyevin "Azərbaycanda dəzgah qrafikasının yaranması və onun inkişaf yolları" adlı fəlsəfə doktoru dissertasiyasını (Bakı, 2008)[9] da Azərbaycan dəzgah qrafikasının inkişafına retrospektiv baxış kimi dəyərləndirmək olar.

Nüsrət Hacıyevin yaradıcılığı daima sənətsevərlərin diqqətini özünə cəlb etmiş, onun yaradıcılığını işıqlandıran məlumatlara bir çox mətbuat orqanında və internet saytlarında yer verilmişdi. Hacıyev Nüsrət Süleyman oğlu haqqında "Azerbaijan international" jurnalında P.Xanlı "Epizode from Dede Gorgud" (1996), "Yesterday and Today" (1999), Z.Səfərova "Azərbaycan irs" jurnalında "Dədə Qorqud" (2000), O.Doğan "Türkiyənin günlük siyasi qəzetində "Özgünlük resepsionu" (2001), G.Aydəmirova və A.Əliyeva "Azərbaijan international" jurnalında "Heirloom book published" (2004), Şamil "Зеркало" qəzetində "На выставке книжной графики" (2006), Sabina "Зеркало" qəzetində "Новости культуры" (2007), M.Əliyeva "Respublika" qəzetində "Gözəl rəssam, istedadlı tərtibatçı" (2008)[10] dərc olunmuş məqalələr onun yaradıcılığının Azərbaycanda və bir çox xarici ölkələrdə də diqqətdə olduğunu göstərir.

Qeyd edildiyi kimi, Nüsrət Hacıyev yaradıcılığının inkişaf dövrləri müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmış və qəzet məqalələrində də əksini tapmışdır. Bu məqalələrdə rəssamın

---

[8] Azərbaycan incəsənəti. / Müəl. heyəti: K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. – Bakı: İşıq.– 1992. – 334 s.

[9] Mehdiyev, R. Azərbaycanda dəzgah qrafikasının yaranması və onun inkişaf yolları. – Bakı – 2008.

[10] Əliyeva, M. Gözəl rəssam, istedadlı tərtibatçı [Mətn] // Respublika – 2008. 22 oktyabr. – s.8.

müxtəlif dövrlərdə yaratdığı əsərlər, qrafik lövhələr, xarici və Azərbaycanın tanınmış ədiblərinin, nasirlərinin əsərlərinə edilmiş illüstrasiyalar, xüsusilə diqqət mərkəzində olmaqdadır. Lakin təqdim edilən elmi tədqiqat işinin digərlərindən fərqliliyi onun yaradıcılığına daha da geniş və fərqli şəkildə yanaşılması, eyni zamanda indiyədək toxunulmamış, ətraflı şəkildə tədqiq edilməmiş bir çox əsərlərin təhlilinə xüsusi yer verilməsindən ibarətdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya tədqiqat obyektini Nüsrət Hacıyevin portretləri, qrafik lövhələri, milli və xarici uşaq ədəbiyyatı, müxtəlif ədəbi əsərlər üçün edilmiş illüstrasiyalarının bədii təhlili, rəssamın yaradıcılığının erkən dövrlərindən başlayaraq, bu günümüzə kimi olan zəngin yaradıcılıq irsinin öyrənilməsi təşkil edir. Onun dövrü mətbuatda işıqlandırılmış əsərləri ilə bərabər, arxiv materiallar, şəxsi kolleksiyalarda saxlanılan əsərləri tədqiqat obyektinin arealını daha da genişləndirir.

1970-ci illərdən başlayaraq müasir dövrədək Azərbaycan rəssamlığının inkişafında Nüsrət Hacıyevin rolunu və yerini müəyyənləşdirmək, onun yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrinin təhlili tədqiqatın predmetininin əsasında durur. Rəssamın yaradıcılığındakı yeni təmayüllər araşdırılıb və nəzəri müddəalarla konkretləşdirilərək tədqiq edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri** Azərbaycanın Əməkdar rəssamı Nüsrət Hacıyevin yaradıcılığının inkişaf mərhələlərini sistemli tədqiq edərək, rəssamın fərqli yaradıcı xüsusiyyətini, dəstxətini, fərdi yaradıcılıq metodunu müəyyənləşdirməkdir. Tədqiqatın məqsəd və vəzifələri sənətkarın əsərlərinin bədii ifadə dilini müəyyənləşdirərkən, Azərbaycan incəsənəti kontekstində yaradıcılığını təhlil etməkdir. Bu konteksdən çıxış edərək onun yaradıcılığını müasir dövrün prizmasından işıqlandırmaqdır.

Nüsrət Hacıyev yaradıcılığının Azərbaycan incəsənəti kontekstində öyrənilməsi aşağıdakı vəzifələrin həllində təzahürünü tapır:

- Əməkdar rəssam Nüsrət Hacıyevin yaradıcılığı haqqında geniş təssəvvür yaratmaq və onun fərdi yaradıcılıq xüsusiyyətlərini

müəyyənləşdirmək;

- Portretlərində təsvir dilinin real və irreallığını müəyyənləşdirmək;

- Yaradıcılığını xronoloji ardıcıllıqla öyrənərək, əsərlərinin bədii təhlili əsasında sistemləşdirilməsi;

- Nüsrət Hacıyevin qrafik əsərlərində məkan təsvirinin özünəməxsus kompozisiya və rəng həllinin əsaslarını təhlil etmək;

- Yaradıcılığının əsas istiqaməti sayılan kitab illustrasiyalarında fərqli və fərdi baxış bucağından yanaşmasını müqayisəli təhlillə araşdırmaq;

- Nüsrət Hacıyevin kitab qrafikası yaradıcılığında bədii tərtibatın üslub xüsusiyyətlərini müəyyənləşdirmək;

- Nüsrət Hacıyevin kitab qrafikasında süjet təsvirlərin bədii həllini vermək;

- Başqa müəllif kitabları kontekstində rəssamın uşaq ədəbiyyatına işlədiyi rəsmləri nəzərdən keçirərək illüstrasiyalara xas olan xüsusiyyətləri aşkar etmək;

- Nüsrət Hacıyevin yaradıcılığında xüsusi yerlərdən birini tutan “Sehrli nağıllar” silsiləsinin onu özünəməxsus edən miniatür üslubu ilə qroteskin birlikdə nəzərdən keçirilməsi;

- Nüsrət Hacıyevin folklora verdiyi dəyəri, milli obraz və rəmzlərin zəngin olmasını çəkdiyi illüstrasiyaları ilə təsdiq etmək;

- Rəssamın yaradıcılıq yolunu müəyyənləşdirməklə müasir Azərbaycan təsviri sənətində Nüsrət Hacıyev yaradıcılığına qiymət vermək və yerini göstərmək.

**Tədqiqat metodları.** Metodoloji əsaslar kimi tarixi və müqayisəli təhlil yanaşma üsuluna üstünlük verilib. Tarixi metod Nüsrət Hacıyevin və onun dövrünün rəssamlarının yaradıcılığını Azərbaycan qrafika sənətinin inkişaf problemləri ilə qarşılıqlı əlaqələndirməyə imkan verir. Nüsrət Hacıyevin bir rəssam kimi formalaşmasına təsir etmiş tarixi şərait nəzərdən keçirilir. Seçilmiş olan təhlil üsulu rəssamın yaradıcılığına məxsus bədii-estetik, poetik-fəlsəfi, süni təsvirçilikdən uzaq olması xüsusiyyətləri maksimal şəkildə üzə çıxartmağa imkan yaradır.

Qrafika sahəsində fəaliyyət göstərən istedadlı rəssamların yaradıcılığını qarşılaşdırmaqla, tətbiq etdikləri bədii texniki

vasitələrlə yaratdıqları əsərlərin müxtəlif mövzularda oxşarlıq və fərqləri nəzərə alınmaqla, müqayisəli təhlil metodu onların səciyyəvi xüsusiyyətlərini ortalığa çıxarmağa kömək edir.

Dissertasiya üzərində iş zamanı tədqiqatda kompleksli metoddan istifadə edilmişdi, yəni əyani material əhatəli şəkildə təhlil olunmuşdu. Xronoloji prinsip əsasında materialların elmi təhlili aparılmış, əsərlərin bir çoxu təhlil edilmiş, mümkün olduğu qədər tədqiq edilən yaradıcılıq nümunələrinə yer ayrılmışdır. Əlavə olaraq, arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuat ümumiləşdirilərək şərh edilmiş, müasir qrafika sənəti ilə bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Nüsrət Hacıyevin yaradıcılıq yolu əhatəli şəkildə araşdırılmış, bir rəssam kimi formalaşmasında ona təsir göstərmiş mühit, ictimai-mədəni şərait tədqiq edilmişdir.
- İlk dəfə olaraq dissertasiyada əksini tapmış bütün əsərlərin yaranma tarixi və bədii texniki göstəriciləri təqdim edilmişdir;
- Nüsrət Hacıyev yaradıcılığının əsas külliyyatını kitab qrafikası təşkil edir, yaradıcılığa hər zaman millilik aspektindən yanaşmışdır;
- Rəssamın uşaqlar üçün çəkilmiş sadə, anlaşıqlı illustrasiyaları kitabın məzmununun açılmasına xidmət edir, illüstrasiyalarında daha çox Azərbaycan miniatür üslubunun müasir təfsirinə müraciət edir;
- Nüsrət Hacıyevin kitab illüstrasiyalarına dövrün estetik prinsiplərini özündə əks etdirən səthi dekorativlik xasdır, şərti simvolika üstünlük təşkil edir;
- Əməkdar rəsssam Nüsrət Hacıyev yaradıcılığı xronoloji ardıcıllıqla sistemləşdirilmiş, ümumiləşdirmələr və nəticələr çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq Azərbaycan sənətşünaslığı tarixində Əməkdar rəssam Nüsrət Hacıyevin həyat və yaradıcılığı sistemli şəkildə tədqiq edilmiş, elmi araşdırmalar zamanı indiyə qədər müəyyən olunmamış təsviri sənət əsərləri təsvir və təhlil olunmuşlar. Rəssamın yaradıcılığı ilə bağlı aparılmış ilk geniş əhatəli tədqiqat işi olaraq, yaradıcılıq diapazonunu, potensialını

nəzərə alaraq, əsərlərinin bədii təhlili mövqeyindən yanaşılmışdır.

Tədqiqata eyni zamanda rəssamın pedaqoji fəaliyyəti, həmçinin geniş ədəbiyyat siyahısı və zəngin illustrasiya materialının əlavə olunması dissertasiyanın elmi dəyərini artıraraq geniş tədqiqat nəticəsində ərsəyə gəldiyini göstərir.

Azərbaycan təsviri sənətində önəmli yer tutan Nüsrət Hacıyev yaradıcılığı əhatəli şəkildə araşdırılmış, rəssamın yaradıcılığı öz mahiyyəti etibarı ilə mövzu və janrlara bölünərək, yaradıcı nailiyyətləri müəyyənləşdirilərək dissertasiyaya daxil edilmişdir. Bütün bunlar sənətkarın XX əsrin sonları - XXI əsrin əvvəllərində Azərbaycanın təsviri sənətinə təsirini, bədii ənənənin müasir təfsirini müəyyən etməyə imkan vermişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Hazırki tədqiqat Azərbaycanın təsviri sənətinin ümumi inkişafında Əməkdar rəssam Nüsrət Hacıyev yaradıcılığının yerini, rolunu və yaradıcılıq metodunu əhatə etməklə onun bədii irsi haqqında fundamental mənbə kimi dəyərləndirilə bilinər. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin qrafika və kitab tərtibatı sahəsində fəaliyyəti, əsərlərinin mövzu və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" və "Azərbaycan qrafika sənəti" mövzularında xüsusi kurslar çərçivəsində tədris oluna bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid müddəalar qrafika sənətinə maraq göstərən gənc rəssamlar üçün əməli tövsiyələr rolunu oynaya bilərlər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri on məqalədə öz əksini tapmışdır. Mövzu üzərindəki axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir. Dissertasiya işi sənətşünas və qrafika ixtisaslarına yiyələnən tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı tətbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya giriş, iki fəsil, beş paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 12.002, 1.1. – 27.805, 1.2. – 76.251, 2.1. – 29.218, 2.2. – 29.262, 2.3. – 37.549, Nəticə – 9.168 işarə olmaqla dissertasiyanın ümumi həcmi 221.255 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın **“Əməkdar rəssam Nüsrət Hacıyevin yaradıcılıq xüsusiyyətləri”** mövzusunda **I fəslin “Nüsrət Hacıyevin yaradıcılığının formalaşması”** adlı **1 paraqrafında** qeyd olunur ki, Nüsrət Hacıyevin yaradıcılığı bir sıra özünəməxsus cəhətləri ilə diqqəti cəlb edir. Öz yaradıcılığında hər zaman şərqli duyumuna malik olduğunu büruzə vermiş, Azərbaycan təsviri sənətinin zəngin ənənələrindən yaradıcılıqla faydalanmışdır. Belə ki, əsərlərinin mövzusu, ideya-bədii məzmunu, orijinal üslubu, kompozisiya tərtibatı, kolorit həlli ilə yaradıcılığında iki istiqaməti paralel apardığını, bədii sintez etdiyini qeyd edə bilərik.

Mövzu və janr müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi rəssamlıq sənətimizi səciyyələndirən mühüm keyfiyyətlərdən biridir.

N.Hacıyev əsasən təsviri sənətin qrafika sahəsində fəaliyyət göstərir. Özündə milli ənənələri və realist rəssamlıq elementlərini birləşdirən əsərləri hər zaman forma və ifadə etdiyi məzmuna görə seçilirlər. Tutumlu bədii obraz və poetik həll prinsipinə malik əsərləri, eyni zamanda plastik rəsm həlli ilə diqqət mərkəzindədir.

Sənətdəki uğurlarına görə Nüsrət Hacıyev müxtəlif mükafatlara layiq görülmüşdür. 1993-cü ildə “Kitabsevərlər cəmiyyəti”nin sərgisində birinci mükafat, 1994-cü ildə “Müasir Azərbaycan miniatürü” sərgi-müsabiqəsində üçüncü mükafat, 2002-

ci ildə “Azərbaycan kitab qrafikası” sərgi-müsabiqəsində birinci mükafat, 2004-cü ildə “Kitab sənəti” adlı beynəlxalq sərgidə birinci mükafat və digərlərinin adlarını qürurla qeyd etmək olar.

2006-cı ildə ölkə rəhbərliyi rəssamın sənətini yüksək qiymətləndirərək, onu "Əməkdar rəssam" fəxri adına layiq görmüşdür.

Rəssamın yazıçılar H.Nəzərli, B.Talıblının portretləri Azərbaycan Milli İncəsənət Muzeyində, “Orta əsrlərin münəccimləri” əsəri isə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ekspozisiyasında nümayiş etdirilir.

Respublikanın daxilində və xarici ölkələrdə təşkil olunan sərgilərdə müntəzəm olaraq iştirak edən rəssam ayrı-ayrı müsabiqələrdə fərqlənmişdir. Dəfələrlə Rusiya, Gürcüstan, Türkiyə, Yaponiya, Belçika, Almaniya və digər ölkələrdə təşkil olunan yaradıcılıq sərgilərində əsərləri ilə Azərbaycan incəsənətini layiqincə təmsil etmişdir.

Əsasən kitab tərtibatı üzərində çalışan görkəmli rəssam eyni zamanda bir çox qrafik əsərlərin, portretlərin, mozaik pannoların da müəllifidir. O, bu əsərlərində sadəcə kamillik və simmetriyanın arxasınca qaçmayaraq, onları yaradıcı şəkildə pozmaqla həyatiliyi məhv etməmiş, əksinə onu daha parlaq və ifadəli şəkildə yaratmağa çalışmışdır.

Nüsrət Hacıyevin yaradıcılıq nümunələrinin arasında azsaylı olmasına baxmayaraq yaratdığı portretlər insan xarakterinin, daxili aləminin açılmasında böyük sənətkarlığın təsdiqi kimi özünü sübut edir.

“Köhnə foto” portreti rəssamın qrafika sahəsində yerinə yetirdiyi əsərləri sırasında xüsusi əhəmiyyətə malikdir. Bunu əsərin həm rəng, həm də kompozisiya həlli ilə təsdiqləmək olar. Əsasən qəhvəyi rəngin dəyişən çalarlarından istifadə edən rəssam müxtəlif əşyaların yerləşdiyi mənzilin otağında əsas olanı – bəstəkar Məşədi Cəmil Əmirovun portretini önə çəkməyə çalışmışdır.

Mirzə Ələkbər Sabirin “Hophopnamə”sinə özünəməxsus fərqli münasibət göstərənlərdən biri olan Nüsrət Hacıyevin ərsəyə gətirdiyi qrafik lövhələrdə onun Sabir poeziyasına dərindən bələdçiliyi duyulur. Rəssamın istər “Hophopnamə” üçün çəkdiyi

illüstrasiyalarda, istərsə də şairin portretlərində bunu əyani görmək mümkündür. Nüsrət Hacıyev şeirlərin sujet və ideyasından başqa, şairin yaradıcı üslubuna toxunaraq, ağ, qara, narıncı rəng tonlarında qrotesk cizgilərin ifadəsi ilə çəkilmiş satirik rəsmlərinin qabarıq gülüş qaynağına çevrilməsinə nail olmuşdur.

Bir çox Azərbaycan rəssamlarının yaradıcılığında Məhəmməd Füzuli, Nizami Gəncəvi kimi tarixi şəxsiyyətlərin portretlərinə rast gəldiyimiz kimi, N.Hacıyev də ulu keçmişə sahib olan tariximizin xalqımıza bəxş etdiyi vacib şəxsiyyətlərin bədii obrazlarını özünə xas üslubda yüksək ustalıqla yerinə yetirməyə müvəffəq olmuşdur.

Xurşidbanu Natəvan obrazına müraciət edən Nüsrət Hacıyev digər portretlərində olduğu kimi yenə eyni rəng palitrasından istifadə edərək işlədiyi portret estetik məziyyətləri baxımından nəzər-diqqəti cəlb edir, portretdə Natəvanın düşüncəli və qəmli görkəmi onun həyatının təzadlı, ağrılı-acılı keçdiyinə bədii işarə kimi qəbul olunur.

Məhəmməd Füzuli, Nizami Gəncəvi, Xurşidbanu Natəvan, Mirzə Ələkbər Sabir, Mir Mövsün Nəvvab kimi tarixi şəxsiyyətlərin portretləri milli-bədii irsimizin təbliğ edilməsi baxımından olduqca dəyərlidir.

Əməkdar rəssam əsərlərində bədii ifadənin realistik vasitələrindən istifadə edərək Azərbaycan xalqının zəngin olan mənəvi dünyasını, məişətini, adət-ənənələrini, təbiətinin valehedici gözəlliyini, tarixini, sənət adamlarının, şairlərin və tarixi şəxsiyyətlərin obrazlarını böyük ustalıqla yaratmışdır. N.Hacıyevin əsərlərinin ifadə dilinin özünəməxsusluğu, üslub reallığı, orjinallığı ilə fərqlənməsi təsviri sənətimizin millilik aspektindən öyrənilməsinə və yaradıcılıq baxımından dərk olunmasına bir vasitədir.

Nüsrət Hacıyevin yaradıcılığındakı təkamülü xarakterizə etməli olsaq, söyləyə bilərəm ki, əvvəlcə realistik ifadə vasitələrindən şərti-rəmzi təsvir üslubundan istifadə edən rəssam sonrakı dövrdə əsasən miniatür üslubuna üstünlük vermiş, reallıq və irreallığın mövcud olduğu miniatürə xas şərtilikdən və realizmdən uğurla yararlanaraq maraqlı əsərlər ərsəyə gətirmişdir.

Fəslin **"Nüsrət Hacıyevin əsərlərində məkan təsvirinin özünəməxsus kompozisiya və rəng həlli"** adlı **2 paraqrafında**

qeyd edilir ki, qrafik təsvir vasitələrinin mahir istifadəçisi olan sənətkar məkan atmosferinin insana bəxş etdiyi təəssüratı ön plana çəkmək üçün məkan tərənnümünə fərdi yaradıcı nöqteyi-nəzərindən yanaşaraq, onu həssaslıqla həyata keçirmişdir. Rəssamın qrafik formatda həll edilmiş kitab illüstrasiyalarında məkan təsvirlərini verən rəssam daha təbii olaraq obyektə üstünlük verərək, onu mühitlə uyğunlaşdırır, bütünlükdə personaj və məkan uyğunluğunu bir arada tutaraq həssas təsvir manerasına nail olur. Əsərlərindəki mürəkkəblik anlayışını rəssam hər zaman fiqurların sıxlığı, kompozisiyada obyekt və elementlərin bir yerdə verilməsi ilə həyata keçirmişdir. Rənglərin vasitəsilə həmin əsərlərə verilən aydınlıq, detalların hər birinin ayrılıqda qavranılması isə yüksək sənətkarlıq nümunələrinin əsas olaraq meydana gəlmə səbəbi kimi dəyərləndirilir. İstedadlı rəssam istənilən əsər üzərində çalışarkən donuq səhnə tərənnümünü deyil, hərəkətdə olan hadisələrin əvvəlki və sonrakı mərhələsi üçün tamaşaçısında aydın təsəvvür yaradan illüstrasiyalar yaratmışdır.

Qeyd edilənlərə misal olaraq, rəssamın "Novruz bayramı" qrafik lövhəsini göstərmək olar. N.Hacıyev Novruz bayramı mövzusunda çəkdiyi rəsmdə hadisələri nikbin boyalarla təsvir etmiş, adət-ənənələri, milli koloriti, folkloru qoruyub saxlaya bilmişdi. "Köhnə Bakı" qrafik tablosu da deyilənlərə parlaq nümunələrdən biridir.

N.Hacıyev yaradıcılıq xüsusiyyətlərinin bədii ifadəsi onun hər bir əsərində süjetin tələb etdiyi fərqli kompozisiya quruluşu ilə özünü göstərsə də rəng həlli, üslub xüsusiyyətləri demək olar ki, bütün əsərlərində rəssamın imzasını təsdiqləyir. Bu imza milli köklərə tapınma, miniatür ənənələrinin böyük təsiri, adətlərin bədii ifadəsi kimi keyfiyyətlərin altına atılmış bir cizgidir.

"Azərbaycan nağılları" kitabının bədii tərtibatı və illüstrasiyaları nəinki, nağılın yaxşı dərk edilməsinə imkan verir, həmçinin, kiçik yaşlı uşaqların estetik zövqünün formalaşdırılmasında da mühüm əhəmiyyət kəsb edir. Rəssam kitabı orta əsrlər şərq kitab mədəniyyəti üçün xarakterik olan miniatür üslubunda işləmiş, "müsbət" və "mənfi" kateqoriyalarına mənsub

olan personajların xarakteristikasını üz cizgilərinin həllində, mimika və jestlərində aydın şəkildə həll etmişdir.

Görkəmli rəssam N.Hacıyevin yaratdığı illüstrasiyaların səciyyəvi xüsusiyyəti haqqında danışarkən hər şeydən əvvəl onların olduqca parlaq rəng həlli, dinamik rəng çalarları ilə yerinə yetirildiyini qeyd etmək vacibdir. İstər komik janrda, istər lirik janrda olan məzmunundan asılı olmayaraq rəssam hər zaman rəng vurğularının daha sərt və parlaqlığını əsas tutaraq onların doğru əlaqə və ifadəsini böyük ustalıqla həyata keçirmişdir. Bunlardan "Aşıq Qərib" dastanına edilmiş illüstrasiyaların dolğun kompozisiyaları xüsusi olaraq diqqəti cəlb edir.

İstedadlı rəssam müxtəlif xalqların ədəbiyyatlarına etdiyi kitab illüstrasiyaları zamanı həmin millətin adət-ənənələrinə, milli dəyərlərinə xüsusi formalarla yanaşaraq sanki məxsusi milliliyi fərqli şəkildə tamaşaçısına ötürməyə çalışmışdır. Əsasən uşaq ədəbiyyatlarına edilmiş bu illüstrasiyalar özünün dərin ekspressiyası, dinamizmi, çılğın çalarları, dolğun bədii ifadə vasitələri ilə diqqəti maraq dairəsinə hakim kəsir.

Qeyd edilənlərə misal olaraq, gürcü nağılı "Komble" kitabına edilmiş illüstrasiyalarda hər şeydən əvvəl rəssamın digər kitab tərtibatlarında olduğu kimi əvvəldən sona qədər vahid üslubu tutaraq eyni istiqamətdə çalışdığını söyləməliyik.

N.Hacıyevin görkəmli ədib Cəlil Məmmədquluzadənin əsərlərinə etdiyi illüstrasiyalar özünün dərin məzmunu, bədii ifadə formaları ilə böyük maraq doğurur. O, bu əsərləri qrafik formatda, ağ və qaranın istifadəsində, işıq və kölgə nüanslarının məharətli istifadəsi əsasında yaratmışdır.

Rəssam hər hansı kompozisiyanı qurarkən elə forma yaratmağa çalışmışdır ki, əsərin bizə anlatmaq istədiyi hadisələrin tərənnümünü verərkən o, səhnənin həm önündə, həm də arxasında duran vəziyyət haqqında artıq oxucuda fikir yaransın. Rəssamın bu tipli sənət nümunələri bütün təsvir boyu obyektlərin kompozisiya quruluşunda yaratdıqları simmetriya, tarazlıq, dinamika uğurlu rəng koloriti əsasında öz kamil həllini tapmışdır.

Bu mənada uşaq ədəbiyyatında böyük rolu olan danimarkalı yazıçı Hans Xristian Andersenin "Ole-Lukoye və başqa nağıllar"

kitabına edilmiş illüstrasiyaları ağ fon üzərində rəngarəng, yüksək əhval oyadan rəng çalarlarına, elementlərin sıxlığına baxmayaraq yaranmış dinamikanın qarışıqlıq yaratmadan, ifadə etdiyi hadisənin əsasını tam şəkildə tamaşaçılarına çatdırması baxımından böyük əhəmiyyət kəsb edir. Hər bir xalqın öz adətlərinə, ənənələrinə, dərin tarixi köklərinə bağlı folklor mədəniyyətinin yazıçılar tərəfindən reallaşdırılmış nağıllar vasitəsilə azyaşlı oxucularla bərabər, bütün oxucu kütləsinin maraq dairəsinə hakim kəsilməsi eyni zamanda həmin nağılların nəşr edildiyi kitabın bədii tərtibat xüsusiyyətlərindən də çox asılı olduğu məlum məsələdir.

Andersenin məşhur "Düyməcik" əsərinə edilmiş illüstrasiyalar da dərin dinamizm, canlılıq əlvan çalarların vasitəsilə verilmişdir.

Rəssamın eskimos nağılı "Ovçu və Nanuk" üçün etdiyi illüstrasiyalarda soyuq, şaxtalı iqlimin insan həyatına göstərdiyi təsirin, məişətlərinin, geyim tərzlərinin necə formalaşdığını məkan təsvirinin uyğunluğu, məqsədyönlü təsviri ilə həll etmişdir. Təbii ki, bu xüsusiyyəti istedadlı sənətkarın digər əsərlərində də görmək mümkündür.

Rəssamın donuq təsvir anlayışının əksinə olaraq əsərlərə etdiyi illüstrasiyalarında mətnə uyğun hadisənin cərəyan etdiyi səhnələrlə əlaqəli yaratdığı illüstrasiyalar sadəcə uşaq ədəbiyyatları ilə məhdudlaşmayaraq, digər görkəmli yazıçıların da çap edilən kitablarının yüksək tərtibat xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bunların arasında Mir Cəlalın "Hekayələr" kitabının adını xüsusilə qeyd etmək olar.

Dissertasiyanın **"Əməkdar rəssam Nüsrət Hacıyevin kitab qrafikası yaradıcılığında bədii ifadə vasitələri"** mövzusunda **II fəslin "Nüsrət Hacıyevin kitab qrafikası yaradıcılığında bədii tərtibatın üslub xüsusiyyətləri"** adlı **1 paraqrafında** vurğulanır ki, yaradıcılığının böyük bir dövrünü kitab qrafikasının inkişafına sərf etmiş Nüsrət Hacıyevin bədii tərtibat verdiyi kitablara daxil olan illüstrasiyalarda Azərbaycanın qədim miniatür üslubunun müasir təfsiri bu növün davam etdirilməsini şərtləndirən amil kimi böyük əhəmiyyət daşıyır.

N.Hacıyevin kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulan kitabların bədii tərtibatı və illüstrasiyalaşdırılması sahəsində böyük

təcrübə və səriştəsi diqqətəlayiq hesab edilməlidir. Rəssam istər milli, istərsə də xarici uşaq ədəbiyyatı illüstrasiyaları və kitablarının tərtibatı üzərində işləyərkən əsərdə baş verən hadisələrə uşaqların baxış mövqeyindən yanaşır, obrazların təfsirində yalnız uşaq psixologiyasına məxsus olan qəhrəman və düşmən seçimindən çıxış edərək, fiqurların plastik forma yaradıcılığında məhz bu kriterilərə əsaslanır.

Rəssam əlliyə yaxın kitab tərtibatı üzərində çalışmışdır. Bunlardan N.K.Andersonun "Düyməcik", "Nağıllar", "Göydən üç alma düşdü", "Sehrli nağıllar", A.Tolstoy "Buratino", K.Çukovskiy "Bibiqon", "Əfqan nağılları", "Rus xalq nağılları", "Folklor nümunələri", "Dünya mənim, dünya sənin", "Uşaqları müharibədən qoruyaq", "Mərasimlər, adətlər, alqışlar", C.Cabbarlı "Ölkəm", gürcü nağılı "Komble", "Eskimos" nağılı "Ovçu və Nanuk", "Hamımız bir günəşin zərrəsiyik", "Demokratiya", "Diktatura", "Rənglər" kimi kitabların adlarını çəkmək olar.

Eyni zamanda I sinif şagirdləri üçün "Ana dili" kitabı dərsliyinə, Mir Cəlalın əsərlərinin 5 cildlik toplusuna, "Tutu" uşaq jurnalına və digər əsərlərə də çəkilmiş illüstrasiyaların müəllifidir.

Rəssam illüstrasiya vasitəsilə milli adət-ənənələrin, milli-mənəvi dəyərlərin daim təbliğ olunmasına, onların yetişməkdə olan nəsillərə çatdırılmasına çalışır. Adı çəkilən bir çox əsərlər rəssamın və həm də qrafikanın əsas rəngləri olan ağ-qara texnikada, işıq-kölgə kontrastı ilə icra edilmişdi. İki rəng arasında mövcud olan çoxsaylı çalarlar və daimi konflikt, bilərəkdən buraxılan ağ boşluqlar rəssamı ağ-qara rəsmin mahir bilicisinə çevirir. Bu əsərlərin hər biri müstəqil kompozisiyaya malik, özündə bütöv fikri ifadə edən bədii lövhələrdir.

Lakoniklik, bitkinlik, əsas süjetin fikri yayındırmadan tamaşaçının diqqətinə çatdırılması onun üçün başlıca xüsusiyyətlərdəndir. İncə və plastik xətlər əsərlərində çox poetik, emosional əhval-ruhiyyə yaradır. Təsvir etdiyi bədii mətnlərin başlıca süjet xəttini nəzərə çatdırmaqla, əsasında realizm prinsipləri hakim olmaqla, onu həm də metaforik, mübaliğəli şəkildə, stilizasiya olunmaqla traktovka edir.

“Azərbaycan xalq nağılları” kitabının bədii tərtibatının yüksək qrafik səviyyəsi, illüstrasiyalarında müəllif üslubunun ifadəsi, əsərin tarixilik baxımından plastik məkan həlli, personajların fiqurativ traktovkasının və bütövlükdə kitabın obrazının tapılması baxımından maraqlıdırlar.

Kitabın tərtibatında N.Hacıyevin öhdəsinə janrın xüsusiyyətlərindən irəli gələrək vəhdəti heç də asan olmayan ikiqat vəzifə düşmüşdür. O, kitabın formasını şrift, format, kağız seçiminə əsaslanan quruluş vəhdətini tematik ideya quruluşu ilə birləşdirmək iqtidarında olduğunu hər bir işdə uğurla təsdiqləməyi bacarmışdır. Bununla da kitabın emosional təsirinin artırılmasında yazıçının ruhunu tutaraq sanki onunla uzaq keçmişinin, uzaq məmləkətinin olmasına fərq qoymadan “əməkdaşlıq” yaratmağı bacarmışdır.

N.Hacıyev Şərq dünyasının dahi filosofu, sevgi dünyasının böyük şairi Nizami Gəncəvinin “Yeddi gözəl” əsərinə həsr edilmiş kitab tərtibatında uyğun olaraq Təbriz miniatür ənənələrinin əsaslarına müraciət etmişdir. Kitabın üz qabığında Bəhramın şir ovunda olan səhnəsi dəbdəbəli qızılı rənglərin harmonik ifadəsində verilmişdi. Kitabda yeddi gözəlin hər birinə xas nağılı söylədikləri rəngli otaq məkanlarının mənzərəsi lirik-romantik rənglər əhatəsində dolğun kompozisiya quruluşunda həyata keçirilmişdi.

N.Hacıyev bir çox xalqların dilimizə tərcümə edilmiş nağıl kitablarına tərtibat verərək, onların yüksək sənətkarlıq nümunəsi kimi Azərbaycan kitab illüstrasiyasının inkişaf xəttini müəyyənləşdirənlərdən birinə çevrilmişdir. Belə nümunələrdən biri də Udin nağılı “Kəndli və dəvə” adlı kitaba həsr edilmiş illüstrasiyalardır. “Kəndli və dəvə” uşaq kitabına edilmiş digər illüstrasiya özünün təsvir forması ilə kiçik oxucularında böyük maraq yaradaraq onları səbirsizliklə mətni oxumaq üçün həvəsləndirir.

N.Hacıyev kitab qrafikası sahəsində uğurlu fəaliyyət göstərmiş, bədii əsərin ideyasının, mənasının açılması, kitabın obrazı ilə dekorativ tərtibatının vəhdətinin saxlanması və əsərə müasir mövqedən yanaşmaq vəzifəsini məsuliyyətlə yerinə yetirmişdir. Əsərdəki mətnaltı ifadəni üzə çıxararaq, önəmli anlarını

təsvir etməklə, mətndə verilmiş yazılı informasiyanı tamamlamaq istiqamətində uğurlu addımlar atmışdır.

Fəslin **"Nüsrət Hacıyevin kitab qrafikasında süjetli təsvirlərin bədii həlli"** adlı **2 paraqrafında** qeyd edilir ki, Əməkdar rəssam hər bir ədəbi əsərə illüstrasiya edərkən hadisələrin mərkəzində dayanan, həm başlanğıc, həm də sonluq haqqında fikir yürütməyə imkan verən səhnə təsvirlərinin uğurlu tərənnümünü böyük sənətkarlıqla həyata keçirməyə nail olmuşdur. O, bunun üçün yaradıcılığında klassik ənənələrin müasir təfsirini uğurla vermişdir. İstedadlı rəssam kitab tərtibatı zamanı fərqli janrda yazılmış ədəbi əsərlərə edilmiş illüstrasiyalarla süjetin əsasını təşkil edən hadisələrdəki inkişaf xəttini müəyyənləşdirən təsvir nümunələri yaratmışdır. Əsərdəki hərəkətləri, personajların xarakterini müəyyən edən dinamikanın əsasını müəyyən edən süjet xəttinin bədii təsvir izahını verən rəssam istər Azərbaycan, istərsə də digər xalqların ədəbiyyatına edilmiş illüstrativ materiallarda özünəməxsus sənətkarlıq nümayiş etdirmişdir.

Nüsrət Hacıyevin bir əsərə etdiyi bir neçə illüstrasiyada onun həmin nümunələri bir-biri ilə əlaqələndirən səhnələrin davamı olduğunu görərik.

Nağıla edilmiş istənilən illüstrasiyada süjet və kompozisiya quruluşu arasındakı əlaqələndirməni rəssam uyğun səhnənin, əsərin süjet xəttini pillə-pillə inkişaf edən dinamikasına uyğun məqsədyönlü hesab etdiyi təsvir zamanı onu müəllifin, eləcə də nağılın aid olduğu xalqın, millətin, onun folklorunun ümumi ruhuna uyğun, dəqiqi element və detallarla həyata keçirmək üçün böyük sənətkarlıq nümayiş etdirmişdir. O, bunu istər elementlərin, istərsə də obrazların sifət cizgilərinin ifadəsində məharətlə həyata keçirə bilmişdir. Belə ki, illüstrasiyada təsvir edilən əsas əhvalat bədii əsərin süjetini təşkil edir. Bu zaman rəssam çalışmışdır ki, öz ideya, məqsəd və görüşlərini doğru və dəqiq ifadə edə bilən süjet üzrə kompozisiya qursun. Bunu əlbəttə ki, qrafik janrın qanunlarına sığacaq minimum və maksimum ölçülərin məqsədli prinsipiallığı ilə həyata keçirən rəssamın böyük təcrübəsi, yaradıcılıq məharəti, obraz və hadisələri hiss edəcək həssaslığı kimi dəyərləndirmək daha doğru olardı. Qurulmuş hər bir kompozisiyada əsas olanın hər dəfə oxşar

məkanın fərqli süjet xətti ilə təqdim edilməsi bunu bir daha təsdiqləyir.

Hər bir illüstrasiyada hərəkət və ifadələrin, hadisələrin, bədii əsər üzrə epizodların, personajların müəyyən, ahəngdar, məntiqi, mənalı, məqsədəuyğun və münasib şəkildə təsvirinə, quruluşuna diqqət yetirən Nüsrət Hacıyevin kompozisiyanı artıq və əskikləri olmadan qurmaq bacarığı onun digər əsərlər üçün edilmiş nümunələrində də eyni səviyyədə özünü göstərir. Burada bədii əsərin bütün hissə, ünsürlərinin qanunauyğun, münasib, gözəl surətdə, məntiqi bir şəkildə yazıldığı kimi təsvirlərin də mətnə uyğunlaşdırılması sadəcə bir illüstrasiyanın deyil, bütövlükdə bir kitabın, səhifənin kompozisiyası hesab edilir. Kompozisiyanın əsas komponenti olan süjet xəttinin qurulmasında rəssamın əsərin mahiyyətin varmaq bacarığını eyni zamanda onun ədəbiyyata, bədii irsə olan həssas münasibəti kimi dəyərləndirmək lazımdır.

Görkəmli ədib M.Cəlalın beş cildli hekayələr kitabının bədii tərtibatını verən Nüsrət Hacıyev hər bir illüstrasiyanın həllində nasirin ədəbi irsinin ruhunu tutaraq yürütməyə çalışdığı məqsədin bədii təsvirini fərdi özünəməxsusluqla canlandırmağa çalışmışdır. İllüstrasiyalarında gözlə qavranılan sənət təəssüratını yaradan rəssam bədii əsərin elə səhnəsini əks etdirməyə çalışmışdır ki, o süjet xəttinin başlanğıcı və sonu haqqında müəyyən təsəvvür yaratmaqla bərabər, əsas qəhrəmanın xarakterik obrazının canlandırılmasına da xidmət etsin.

“Komble” nağılına edilmiş istənilən illüstrasiyada süjet və kompozisiya quruluşu arasındakı əlaqələndirməni rəssam uyğun səhnənin, əsərin süjet xəttini pillə-pillə inkişaf edən dinamikasına uyğun məqsədyönlü hesab etdiyi təsvir zamanı onu müəllifin, eləcə də nağılın aid olduğu xalqın, millətin, onun folklorunun ümumi ruhuna uyğun, dəqiq element və detallarla həyata keçirmək üçün böyük sənətkarlıq nümayiş etdirmişdir.

Fikrin forma və məzmun məsələlərinin həllində sənətkar axtarışları ən ideal variantları ilə uşaq düşüncəsinin daha dərin qatlarına qədər sirayət edərək öz təsirini göstərir. Belə nümunələr içərisində Nüsrət Hacıyevin müəlliflik etdiyi “Göydən üç alma düşdü” seriyası da ən azı digər əsərlər qədər öz təsirini göstərir. Qeyd

edilən kitabda yer almış bütün illüstrasiyalar eyni üslubda həyata keçirilməklə ümumiliyin qorunmasında əsas hesab edilir. Əsərlərdə bir neçə üslubun sintezi xüsusilə diqqəti cəlb etməkdədir.

Hər bir illüstrasiyada hərəkətlərin, hadisələrin, bədii əsər üzrə epizodların, personajların müəyyən məqsədəuyğun və münasib şəkildə təsvirinə, quruluşuna diqqət yetirən Nüsrət Hacıyevin kompozisiyanı artıq və əskikləri olmadan qurmaq bacarığı onun digər əsərlər üçün edilmiş nümunələrində də eyni səviyyədə özünü göstərir. Burada bədii əsərin bütün hissə, elementlərin qanunauyğun, ahəngdar, gözəl surətdə, mənalı bir şəkildə yazıldığı kimi təsvirlərin də mətnə uyğunlaşdırılması sadəcə bir illüstrasiyanın deyil, bütövlükdə bir kitabın, səhifənin kompozisiyası hesab edilir. Kompozisiyanın əsas komponenti olan süjet xəttinin qurulmasında rəssamın əsərin mahiyyətinə varmaq bacarığını eyni zamanda onun ədəbiyyata, bədii irsə olan həssas münasibəti kimi dəyərləndirmək lazımdır.

Eskimos nağılı olan "Ovçu və Nanuk" əsərinin süjet xəttinin inkişaf mərhələsi olan hadisələrin əsasını təşkil edən kompozisiyada rəssam çoxfiqurlu səhnə tərtibatını verməklə onların aralarındakı danışıqları, münasibəti, münaqişəni göstərməyə çalışmışdır.

Rəssam "Yurdun nağıl bağı" silsiləsindən Udin nağılı olan "Kəndli və dəvə" nağılına edilmiş illüstrasiyada təsvir olunan hadisənin şəraitini, vəziyyətini, məkanını, zamanını göstərən hissənin əsasını açıqlayan təsvir ilə tamaşaçı diqqətini özünə cəlb etmişdir.

Ümumiyyətlə, Nüsrət Hacıyevin bir əsərə etdiyi bir neçə illüstrasiyada onun həmin nümunələri bir-biri ilə əlaqələndirən səhnələrin davamı olduğunu görərik. Süjetli təsvir dediyimiz anlamda məhz bir-biri ilə bağlı olub, ardıcıl surətdə inkişaf edən və birbaşa nağılın və yaxud digər janrda yazılmış əsərin məzmununu təşkil edən hadisələrin ardıcıllığının yaranmasıdır ki, bunu da rəssamın həyata keçirdiyi nümunələrdə aydın görmək mümkündür. Onun təsvir etdiyi hadisələrin içərisində canlandırılan personajların qarşılıqlı əlaqəsi, münasibəti həmin obrazların xarakterik cəhətlərini, tərənnüm edilənlərin fikir, hiss və həyəcanlarını əks etdirməsi prinsipini bədii əsərə dərindən bələd olma, qəhrəmanların daxili

aləmini anlamaq, onların düşüncələrinə nüfuz etmək kimi dəyərləndirmək olar.

Fəslin **"Nüsrət Hacıyev yaradıcılığında "Sehrli nağıllar" silsiləsi"** adlı **3 paraqrafında** qeyd edilir ki, müxtəlif kitablara verdiyi tərtibatlarda olduğu kimi, qeyd edilən silsilə üzrə illüstrasiyalarda da Azərbaycanın qədim miniatür üslubunu yaşatmağa, müasirləşdirməyə, inkişaf etdirməyə çalışan rəssamın yaradıcılığında millilik hər zaman ön planda olmuşdur.

Məsələn, "Sehrli nağıllar" silsiləsindən Şaha hədiyyənin gətirilməsinə həsr edilən səhnənin təsviri əslində realistik janrın sadə formalarında həll edilmişdi. Lakin bütün element və detalların yerində işlədilməsi, heç bir obyektin artıqlıq və yaxud əskiklik yaratmadan səhnənin tam aydın qavranılmasına riayət etməsi əsərin zəngin kompozisiya quruluşunu təqdim edir.

N.Hacıyev bir kitaba illüstrasiyalar edərkən onun vahid stilini tutaraq onları eyni üslub həllində verirdi. Məsələn, "Məlikməmməd" nağılına edilmiş digər illüstrasiyada da kənar haşiyənin həndəsi ornamental həlli deyilənləri təsdiq edir. Və yaxud eyni rəng çalarlarının fon kimi seçilməsi də eyni üslub həllini təsdiqləyən nüanslardandır. Bundan əlavə obrazların tərənnümündə, sujetin sadə, anlaşıqlı, mücərrəd olmayan, lakin zəngin kompozisiya həllində də bunu görmək mümkündür.

Kitabın bütün illüstrasiyaları üçün şərti-simvolizmlə yanaşı, dövrün estetik prinsiplərini özündə əks etdirən səthi dekorativlik xasdır. Bu illüstrasiyaların hər birində rəssam əsərin ideyasının müasir qrafik interpretasiyasını oxucuya çatdırmağa və süjet xəttinin ən vacib anlarını çoxfiqurlu kompozisiyalarda həll etməyə nail olmuşdur.

Rəssam illüstrasiyalarında ədəbi materialın əsas məqamlarının emosional ifadəsinə nail olmuş, dinamik kompozisiyalarda xarakterlərin qabarıq şəkildə çatdırılması üçün səy göstərmiş, geyim, aksessuar və ən xırda detalların təsvirində dəqiq ifadəliyi saxlamışdır. İllüstrasiyalarda rəssam müəllif ideyasının çatdırılmasını, çoxsaylı obrazların xarakterlərinin ifadəsini, hadisələrin inkişafını və kulminasiyasını əks etdirmişdir. Bədii

əsərin arxitektonikasını çatdırmaq məqsədinə nail olmuş, yüksək professional qrafika mədəniyyətinə malik illüstrasiyalar yaratmışdır.

N.Hacıyevin “Sehrli nağıllar” silsiləsinə aid “İbrahim” adlı nağıla etdiyi illüstrasiyanın alovlu rəng çalarları xüsusilə diqqət çəkir. Əsərin mürəkkəb kompozisiyasına baxmayaraq onun anlaşıqlı ifadə vasitələri əsərin mükəmməl həllindən xəbər verir.

Təsvirin kənar haşiyələrinin sol yuxarı və sağ aşağı hissəsində nəfis nəbati ornamentasiya verilmişdi ki, bütün bunlar orta əsrlər Azərbaycan miniatür sənətinin ənənələrinin davamı və eyni zamanda müasir inkişafında əhəmiyyətli rola malik olması kimi dəyərləndirilir.

N.Hacıyevin 2004-cü ildə “Tutu” uşaq mədəniyyət mərkəzinin nəşriyyatının dərci olan “Sehrli nağıllar” silsiləsinə aid illüstrasiyalarında yaratdığı əşyaların, əsasən də məişətdə istifadə edilən qab-qacağın və yaxud da silahların təsvirində uyğun rəng çalarları ilə yanaşı dolğun, sanki təbii tərənnümü rəssamın ən xırda bir elementin belə yaradılmasında ona böyük həssaslıqla yanaşmasının göstəricisidir.

Rəssamın “Sehrli nağıllar” silsiləsinə aid illüstrasiyalarında verilmiş bəzi detallar vardır ki, real həyatda istər qədim dövr olsun, istərsə də müasir zamanda rast gəlmədiyimiz əşya mühitinin şahidi oluruq ki, bunlar nağılların mətnində cərəyan edən hadisələr sırasında sadəcə nəqli təsvir mahiyyəti daşımışdır. Deməli onların tərənnümündə təsvir etmə sırf rəssamın yüksək sənətkarlıq bacarığına, şəxsi təxəyyülünə xas olaraq həyata keçirilməlidir. Və eyni zamanda bütün bunlarla yanaşı burada kortəbii təsvir deyil, hər hansı bir məqamları ilə ənənəvilik prinsiplərinin əsas tutulması həmin təsvirlərin yüksək sənətkarlıq dəyərini şərtləndirən əsaslardır. Məsələn, iri bir daşa bənzəyən çıxıntıları olan daş məmulatın və onun üzərində uzun çubuq parçalarının olduğu təsvirdə uyğun rəng həlli deyilənləri əsaslandırır.

“Sehrli nağıllar” silsiləsinə aid çoxsaylı illüstrasiyalarında rəssam hər səhifəyə uyğun nümunənin yaradılması ilə uşaq kitabının dolğun tərtibatla nəşr edilmə imkanını yaratmışdır. Bu rəngarəng, xoş ovqatlı illüstrasiyalar mətnin məna dəyərinə rəng qataraq kitabın daha maraqlı, diqqətçəkən olmasına xidmət etmişdir. Burada sadəcə

insan və yaxud hər hansı bir canlı obrazlarla deyil, müxtəlif detal və elementlərin maraq yaratdığı illüstrasiyalar aləmi ilə qarşılaşmamış N.Hacıyevin həssas münasibəti, öz işinə böyük həvəs və yüksək sənətkarlıqla yanaşmasının təsdiqidir.

N.Hacıyev hər bir kitab tərtibatının təsvir həlli yolunda müstəqil bədii axtarışların müasir şəraitdə aparılması zamanı klassik mənzərə janrı və qrafika, ədəbiyyat, fəlsəfə elminə dərindən bələd olmasını öz illüstrasiyalarında dəfələrlə təsdiq etmişdir. Real məkan təsvirlərindən fərqli olaraq nağıl üzrə illüstrasiyalar üzərində çalışarkən rəssam təsəvvüründə, daxilində təxəyyülün məhsulu olan hadisələrin cərəyan etdiyi dünyanı yaratmalı və onu kağız üzərinə köçürməlidir. Bu mənada N.Hacıyevin "Sehrli nağıllar" silsiləsinə daxil olan illüstrasiyalarında məkan tərənnümü yaradıcı təxəyyülün məhsulu kimi böyük əhəmiyyət daşıyır.

**Nəticədə** tədqiqatda aşağıdakı qənaətlər əldə olunmuşdur:

- Nüsrət Hacıyevin yaradıcılığının əsas külliyyatını təşkil edən kitab və dəzgah qrafikasının müəyyən hissəsi uşaq ədəbiyyatıdır ki, onun üçün çəkilmiş sadə, anlaşıqlı rəsm kitabın məzmununun açılmasına xidmət edir;

- Nüsrət Hacıyevin bədii tərtibat verdiyi kitablara daxil olan illüstrasiyalarda yer alan Azərbaycanın orta əsr miniatür üslubunun müasir təfsiri bu janrın davam etdirilməsini şərtləndirən amil kimi böyük əhəmiyyət daşıyır;

- Portret janrında yaratdığı poetik obrazlara özünün fərdi-yaradıcı münasibətini müvəffəqiyyətlə ötürməyi bacarmışdır.

- Nüsrət Hacıyevin estetik prinsipləri geniş təcrübə, hər hansı bir məkan mühitində lazım olan fraqmentin tapılmasında göstərdiyi yüksək həssaslıq, eyni zamanda insan və mühit əlaqələndirməsinin ideal variantının tapılması əsasında formalaşmışdır;

- Nüsrət Hacıyev kitab illüstrasiyalarına dövrün estetik prinsiplərini özündə əks etdirən səthi dekorativlik xasdır;

- Nüsrət Hacıyevin istənilən əsər üzərində çalışarkən donuq səhnə tərənnümünü deyil, hərəkətdə olan hadisələrin əvvəlki və sonrakı mərhələsi üçün tamaşaçısında aydın təsəvvür yaradan illüstrasiyalar yaratmışdır;

- Rəssamın yaradıcılığında mühüm yer tutan, əsasən də

azyaşlıların sevimli janrı sayılan nağıllar üçün çəkdiyi əsərləri mövzu və kompozisiya quruluşuna görə aydınlığı, tətbiq etdiyi qrafik təsvir vasitələrinə görə lakonikliyi, sadəliyi və miniatür ənənələrinə müasir yanaşması bütün mənalarda diqqətçəkən, yaddaqalandır.

- Rəssamın məkan təəssüratını ifadə edən əsərlərində rənglərin, işıq- kölgənin, cizgilərin, elementlərin hər birinin bütöv kompozisiyaya kifayət qədər təsir göstərərək onun daha təsiredici təsvirini yaratmağı bacarmışdır. Sənətkar məkan abu-havasının insana verdiyi təəssüratı ön planda göstərmək üçün məkan tərənnümünə fərdi yaradıcı baxımından yanaşaraq, onu incəliklə həyata keçirmişdir.

- illüstrasiyalarda rəssamlıq ənənələrini yaşatmağa, müasirləşdirməyə, inkişaf etdirməyə çalışan Nüsrət Hacıyev yaradıcılığa hər zaman millilik aspektindən yanaşmışdır;

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. XX əsrdə Azərbaycanda kitab qrafikasının inkişaf mərhələsi // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Azərbaycan Xalça muzeyi. № 3 (17). Bakı – 2015. – s. 42-46
2. Nüsrət Hacıyevin kitab qrafikası üzrə yaradıcılığında bədii tərtibatın üslub xüsusiyyətləri // "Axtarışlar". Naxçıvan -2018. № 4(30), cild 8.- s.147-149
3. Əməkdar rəssam Nüsrət Hacıyevin "Azərbaycan nağılları" silsiləsinə çəkdiyi illüstrasiyaların bədii xüsusiyyəti // Sivilizasiya. № 4. cild 7. Bakı- 2018(40), s.213-219
4. Rəssam Nüsrət Hacıyevin Andersenin nağıllarına çəkilmiş illüstrasiyalarının tərtibat xüsusiyyətləri // Sənət Akademiyası. № 3 (8). Bakı- 2019. s.31-34
5. Nüsrət Hacıyevin kitab qrafikası yaradıcılığında bədii tərtibatın üslub xüsusiyyətləri // "Axtarışlar". Naxçıvan -2019. № 2, cild 10.- s.186-189

6. Nüsrət Hacıyevin kitab qrafikasında sujet təsvirlərin bədii həlli // III Uluslararası Dergi Karadeniz Sosyal bilimler Sempozyumu (IBSESS).-2019, 19-21noyabr.Bakı - s.100-103

7. Əməkdar rəssam Nüsrət Hacıyevin "Sehrli nağıllar" kitabına verdiyi bədii tərtibat // "Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu" III Respublika elmi-nəzəri konfrans.-2019, 28 noyabr. Bakı - s.147-152

8. Əməkdar rəssam Nüsrət Hacıyevin "Sehrli nağıllar" kitabına çəkdiyi illüstrasiyaların bədii xüsusiyyətləri // "Axtarışlar". Naxçıvan -2022. № 2(42), cild 16.- s.179-182

9. Художественные особенности творчества заслуженного художника Азербайджана Нусрата Гаджиева / Colloquium-journal. -№3(126) 2022. s.4-6

10. Жизненные и творческие достижения заслуженного художника Азербайджана Нусрата Гаджиева // Научный форум: филология, искусствоведение и культурология. Москва-2024, сентябрь. №9 (85). s.5-10

Dissertasiyanın müdafiəsi 13 mart 2025-ci il tarixində saat 11.$^{00}$-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.01.2025
Kağızın formatı: A5
Həcm: 39.765
Tiraj: 100